*UOT 372.881.11*

***Gülgün Sərxan qızı Novruzova***
*Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının müəllimi*
*https://orcid.org/0009-0003-9066-5830*
*E-mail:gulgun.qenberova.94@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(5).141-145*

# XARİCİ DİL MÜƏLLİMLƏRİ ÜÇÜN YAZI BACARIĞININ İNKİŞAFINA DAİR EFFEKTİV TƏDRİS STRATEGİYALARI

***Gulgun Sarkhan Novruzova***
*lecturer acher of the department of Pedagogy at Azerbaijan University of Languages*

# EFFECTIVE TEACHING STRATEGIES FOR FOREIGN LANGUAGE TEACHERS TO DEVELOP WRITING SKILLS

***Гюльгюн Сархан гызы Новрузова***
*преподаватель кафедры Педагогики Азербайджанского Университета Языков*

# ЭФФЕКТИВНЫЕ СТРАТЕГИИ ОБУЧЕНИЯ ДЛЯ УЧИТЕЛЕЙ ИНОСТРАННЫХ ЯЗЫКОВ ПО РАЗВИТИЮ НАВЫКОВ ПИСЬМЕННОЙ РАБОТЫ

**Xülasə.** Xarici dildə yazı bacarığı şagirdlərin fikirlərini yazılı şəkildə məntiqli, səlis və təsirli ifadə etmələri üçün əsas dil bacarığıdır. Bu bacarığın inkişafı yalnız qrammatik qaydaların və lüğətin mənimsənilməsi ilə məhdudlaşmır, eyni zamanda fikirlərin düzgün strukturlanması, məzmunun ardıcıllığı və yaradıcı yanaşmanın tətbiqini tələb edir. Yazı bacarığının formalaşması çoxsahəli bir prosesdir və bu prosesdə şagirdlərin tənqidi düşünmə, planlaşdırma və ünsiyyət qabiliyyətləri də inkişaf etdirilir. Səmərəli yazı tədrisi mərhələli şəkildə aparılmalı, hazırlıq, yazı, redaktə, korrektə və təqdimat kimi əsas mərhələlərə əsaslanmalıdır. Tədris prosesində şagirdlər əvvəlcə mövzu ilə tanış olur, fikirlərini planlaşdırır, sonra sərbəst şəkildə yazını yazır, daha sonra məzmun və quruluş baxımından redaktə edir, dil və qrammatika səhvlərini düzəldir və nəhayət yazını təqdim edirlər. Bu mərhələlər yazı prosesini sistemləşdirir və şagirdlərin yazı bacarıqlarını ardıcıl şəkildə inkişaf etdirməsinə şərait yaradır. Yazı bacarığının inkişafında model mətnlər üzərində iş, mərhələli yazı prosesi, qrup işi, qrafik təsvirlər və yaradıcı tapşırıqlar kimi müxtəlif praktiki strategiyalar istifadə olunur ki, bunlar şagirdlərin həm dil biliklərini, həm də kommunikativ və yaradıcı qabiliyyətlərini artırır. Bu yanaşmalar şagirdlərin dilə olan münasibətini gücləndirir, onları daha sərbəst və özünəinamlı ifadə etməyə hazırlayır və ümumilikdə xarici dili daha səmərəli öyrənmələrinə imkan yaradır.

Məqalədə xarici dil müəllimlərinin yazı bacarığını inkişaf etdirməyə yönəlmiş müasir və effektiv tədris strategiyaları araşdırılır və onların praktik tətbiqi üsulları izah olunur.

***Açar sözlər**: praktik tədris strategiyaları, xarici dil tədrisi, yazı prosesinin mərhələləri, kommunikativ yazı, yaradıcı yazı tapşırıqları*

**Abstract.** Writing skills in a foreign language are the main language skills for students to express their ideas logically, fluently and effectively in writing. The development of this skill is not limited to the mastery of grammatical rules and vocabulary, but also requires the correct structuring of ideas, the consistency of content and the application of a creative approach. The formation of writing skills is a multidisciplinary process, and in this process, students' critical thinking, planning and communication skills are also developed. Effective writing teaching should be carried out in stages, based on the main stages such as preparation, writing, editing, proofreading and presentation. In the teaching process, students first get acquainted with the topic, plan their ideas, then write the writing freely, then edit it in terms of content and structure, correct language and grammar errors and finally present the writing. These stages systematize the writing process and create conditions for students to consistently develop their writing skills. Writing skills development uses a variety of practical strategies, such as working on model texts, a step-by-step writing process, group work, graphic organizers and creative tasks, which enhance students' language skills as well as their

communicative and creative abilities. These approaches strengthen students' attitudes towards language, prepare them to express themselves more freely and confidently, and overall enable them to learn a foreign language more effectively.

The article examines modern and effective teaching strategies aimed at developing the writing skills of foreign language teachers and explains their practical application methods.

***Key words:*** *practical teaching strategies, foreign language teaching, stages of the writing process, communicative writing, creative writing tasks*

**Аннотация**. Навыки письма на иностранном языке являются необходимыми языковыми навыками для учащихся, позволяющими логично, бегло и эффективно выражать свои мысли в письменной форме. Развитие этого навыка не ограничивается освоением грамматических правил и лексики, но также требует правильного структурирования мыслей, последовательности содержания и применения творческого подхода. Развитие навыков письма - это межпредметный процесс, в ходе которого у учащихся также развиваются критическое мышление, планирование и коммуникативные навыки. Эффективное обучение письму должно осуществляться поэтапно, на основе таких ключевых этапов, как подготовка, написание, редактирование, корректура и презентация. В процессе обучения учащиеся сначала знакомятся с темой, планируют свои идеи, затем пишут эссе в свободной форме, редактируют его по содержанию и структуре, исправляют языковые и грамматические ошибки и, наконец, представляют эссе. Эти этапы систематизируют процесс письма и позволяют учащимся последовательно развивать свои навыки письма. При развитии навыков письма используются различные практические стратегии, такие как работа с типовыми текстами, пошаговый процесс письма, групповая работа, графические иллюстрации, творческие задания, повышающие как языковые навыки учащихся, так и их коммуникативные и творческие способности. Эти подходы укрепляют отношение учащихся к языку, подготавливают их к более свободному и уверенному выражению своих мыслей и в целом позволяют им более эффективно изучать иностранный язык.

В статье рассматриваются современные и эффективные стратегии обучения, направленные на развитие навыков письма у преподавателей иностранных языков, а также объясняются методы их практического применения.

***Ключевые слова:*** *практические стратегии обучения, обучение иностранным языкам, этапы процесса письма, коммуникативное письмо, творческие письменные задания*

Xarici dildə yazı bacarığı öyrənən şəxsin fikirlərini yazılı şəkildə səlis və məntiqli formada ifadə edə bilməsi üçün zəruri olan əsas dil bacarığıdır. Bu bacarığın formalaşdırılması şagirdin qrammatik strukturları mənimsəməsi, leksik ehtiyatını genişləndirməsi və fikirlərini məqsədyönlü şəkildə strukturlaşdırması ilə birbaşa bağlıdır. Müasir dövrdə yazı bacarığı yalnız təhsil mühitində deyil, eyni zamanda peşəkar və sosial kontekstlərdə səmərəli ünsiyyətin təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Xarici dildə yazı yalnız qrammatika və lüğət biliklərinin tətbiqi ilə məhdudlaşmamalı, eyni zamanda yaradıcı yanaşma, funksional düşüncə və kommunikativ niyyətin reallaşdırılması ilə müşayiət olunmalıdır. Bu səbəbdən yazı bacarığının tədrisi müəllimdən təkcə nəzəri bilik deyil, həm də praktik strategiyalar, təlim texnikaları və öyrənən yönümlü fərdi yanaşmalar tələb edir. Səmərəli yazı tədrisi sistemli və mərhələli şəkildə planlaşdırılmalı, şagirdlərin tənqidi düşünmə və orijinal fikir bildirmə qabiliyyətlərini inkişaf etdirməyə xidmət etməlidir. J.Harmer “How to Teach Writing” adlı elmi əsərində yazı bacarığının planlı və mərhələli şəkildə öyrədilməsinin vacibliyini vurğulayır (1, s. 71-78). O, model (nümunə) mətnlərdən istifadəni, şagirdlərin yazı nümunələrini təhlil etməyi və yaradıcı tapşırıqların tətbiqini əsas strategiyalar kimi təqdim edir. Harmerə görə, bu yanaşmalar şagirdlərin həm dil biliyinin möhkəmlənməsinə, həm də yaradıcı və kommunikativ bacarıqlarının inkişafına xidmət edir. D. Ferris və J.Hedqoq isə “Teaching L2 Composition: Purpose, Process, and Practice” adlı əsərlərində yazı bacarığının tədrisində proses yönümlü yanaşmanın effektivliyini vurğulayırlar (2, s. 1-15). Onların fikrincə, yazı prosesinin əsas mərhələləri olan planlaşdırma, ilk versiyanın yazılması, redaktə və korrektəsi sistemli şəkildə yerinə yetirildikdə, şagirdlər daha məqsədyönlü yazılar təqdim edə bilirlər. Müəlliflər xüsusilə əks əlaqənin (feedback) əhəmiyyətini qeyd edir və onun yazı bacarığının inkişafında həlledici rol oynadığını elmi əsaslarla izah edirlər. Bu yanaşma şagirdlərin yazı prosesini yalnız

məhsulyönlü deyil, həm də öyrənməyönlü bir fəaliyyət kimi qavramalarına şərait yaradır. Xarici dildə yazı bacarığına yiyələnmək təkcə dil qaydalarının mənimsənilməsi deyil, həm də bu qaydaların funksional şəkildə tətbiq edilməsi və yazının məqsədyönlü şəkildə strukturlaşdırılması deməkdir. Yazı bacarığı mərhələli şəkildə formalaşır və bu mərhələlər sistemli şəkildə həyata keçirildikdə daha effektiv nəticə əldə olunur. Yazı bacarığı yalnız dil biliklərinin yoxlanılması vasitəsi deyil, həm də yaradıcı və funksional nitq fəaliyyətidir. Xarici dildə yazı bacarığına malik olmaq:

Fikrin strukturlaşdırılması;

Məntiqi ardıcıllığın qorunması;

Qrammatik düzgünlük və üslubi uyğunluq;

Müəyyən auditoriyaya yönəlmiş ifadə tərzi kimi qabiliyyətləri əhatə edir (3, s. 123–135).

Bu bacarıqların formalaşdırılması üçün yazı prosesi mərhələli və təlimə əsaslanan şəkildə təşkil edilməlidir. Yazı bacarığının formalaşmasında əsas mərhələlər aşağıdakılardır:

1. Hazırlıq mərhələsi (pre-writing). Mövzu seçimi, ideyaların toplanması və planlaşdırma;

2. Yazı mərhələsi (drafting). Əsas fikirlərin ilkin formada ifadə olunması, strukturun qurulması;

3. Redaktə mərhələsi (revising) – Fikirlərin ardıcıllığının, məntiqinin və uyğunluğunun yoxlanılması;

4. Düzəliş və korrektə mərhələsi (editing) – Qrammatik, leksik və üslub xətalarının düzəldilməsi;

5. Təqdimetmə mərhələsi (publishing/presenting) – Yazının yekun versiyasının paylaşılması və ya təqdim olunması (4, s. 162).

Yuxarıda sadalanan mərhələləri geniş şəkildə aşağıdakı kimi təsvir etmək olar:

1. Hazırlıq mərhələsi (*Pre-writing*). Bu mərhələ yazı prosesinin başlanğıcıdır və şagirdin fikir formalaşdırması, yazının məqsəd və istiqamətini müəyyən etməsi ilə xarakterizə olunur. Buraya aşağıdakılar daxildir:

Mövzu seçimi - müəllimin təqdim etdiyi mövzulardan biri seçilir və ya şagirdə azad seçim imkanı verilir. Mövzu real və maraqlı olmalıdır.

Beyin fırtınası (*brainstorming*) - şagirdlər yazacaqları mövzuya dair söz, ifadə və ideyalar toplamaq üçün azad şəkildə düşünürlər.

Beyin xəritəsi (*mind map*), diaqramlar və sxemlər. Şagirdlər fikirlərini vizual şəkildə planlaşdıraraq yazının strukturunu əvvəlcədən qururlar.

Hədəf oxucu və məqsədin müəyyən edilməsi. Yazı kim üçün yazılır (məsələn, müəllim, jurnal oxucusu və s.) və məqsədi nədir (məlumat vermək, inandırmaq, əyləndirmək və s.).

Bu mərhələ yaradıcı fikirlərin formalaşması və strukturlaşdırılması baxımından böyük əhəmiyyətə malikdir. Yaxşı planlaşdırılmış yazı daha məntiqi və aydın olur.

2. Yazı mərhələsi (*Drafting*). Bu mərhələdə şagird əvvəlki mərhələdə topladığı ideyalar əsasında yazının ilkin variantını yazır. Burada əsas məqsəd fikirləri ifadə etməkdir, qrammatik səhvlərin olmaması bu mərhələdə prioritet sayılmır. Paraqraf quruluşu giriş, əsas və yekun hissələr kimi müəyyənləşdirilir.

Fikirlərin ardıcıllığı. Əsas fikirlər məntiqi və tematik olaraq bir-biri ilə əlaqələndirilir.

Düşüncələrin sərbəst ifadəsi. Şagirdlər qrammatik korrektədən çox, ideyanın aydın şəkildə ifadəsinə fokuslanır.

Bu mərhələ yaradıcılıq üçün açıq olmalı, şagirdlərə sərbəst yazmaq imkanı verilməlidir.

3. Redaktə mərhələsi (*Revising*). Bu mərhələ yazının məzmun və struktur baxımından təkmilləşdirilməsini əhatə edir. Şagird yazını oxuyaraq aşağıdakı suallara cavab tapmağa çalışır:

- Fikirlər aydın və tamdırmı?
- Yazı əsas mövzuya fokuslanırmı?
- Paraqraflar bir-biri ilə əlaqəlidirmi?
- Giriş və yekun hissələr məqsədəuyğundurmu?

Bu mərhələdə müəllim və ya həmyaşıdların geribildirimi mühüm rol oynayır. Müəllim şagirdə inkişaf istiqamətində konkret təkliflər verməlidir.

4. Düzəliş və korrektə mərhələsi (*Editing*). Redaktədən sonra yazının texniki baxımdan təkmilləşdirilməsi həyata keçirilir. Bu mərhələdə şagird aşağıdakı məsələlərə diqqət yetirir:

- Qrammatik səhvlər;
- İmla və durğu işarələri;
- Sözlərin düzgün seçimi və uyğunluğu;
- Üslub və səlislik.

Bu mərhələ yazının keyfiyyətini yüksəltmək və onu təqdimata hazır vəziyyətə gətirmək üçün vacibdir. Müəllimlər bu mərhələdə şagirdlərə öz yazılarını diqqətlə oxumağı və düzəlişlər aparmağı öyrətməlidirlər.

5. Təqdimetmə mərhələsi (*Publishing/ Presenting*). Yazı prosesinin son mərhələsidir. Şagirdlər yazdıqları mətni:

- Sinif yoldaşları ilə bölüşür;
- Divar qəzetlərində, onlayn platformalarda paylaşır;
- Şifahi təqdimat formasında təqdim edir;
- Portfoliolarına daxil edirlər.

Bu mərhələ şagirdlərdə motivasiya yaradır, yazılarına qarşı məsuliyyət hissi formalaşdırır və onların öz işlərinə dəyər verməsinə şərait yaradır. Yazıların paylaşılması həm də öyrənənlərin özlərinə inamını artırır (5, s. 20).

Yazı bacarığının mərhələli şəkildə öyrədilməsi şagirdin fikirlərini aydın və məntiqli şəkildə ifadə etməsinə, həmçinin dilin funksional istifadəsinə imkan yaradır. Bu mərhələlərin hər biri dilin ünsiyyət funksiyalarına uyğun olaraq tərtib edildiyi üçün müəllimlər bu prosesi planlı və sistemli şəkildə həyata keçirməlidirlər. Mərhələli tədris yanaşması şagirdlərin həm yazı bacarığını, həm də ümumi dil kompetensiyasını inkişaf etdirir.

Xarici dil tədrisində yazı bacarığının formalaşdırılması və inkişafı üçün istifadə olunan metodik strategiyalar müəllimin pedaqoji ustalığından və dərsin məqsədindən asılı olaraq müxtəlif formalarda tətbiq edilir. Bu strategiyalar dil öyrənənlərin yalnız texniki deyil, eyni zamanda ünsiyyət, tənqidi düşünmə və yaradıcılıq bacarıqlarını da inkişaf etdirir. Aşağıda yazı bacarığının tədrisində ən geniş istifadə olunan səmərəli strategiyalar izah olunur:

1. Model əsaslı yanaşma. Bu strategiya şagirdlərin əvvəlcədən hazırlanmış yazı nümunələri (model mətnlər) üzərində işləməsi əsasında qurulur. Məqsəd, yazının strukturunu, üslubunu, leksik və qrammatik xüsusiyyətlərini təhlil edərək, həmin mətnlərdən nümunə götürərək öz yazılarını yazmaqdır.

Tətbiq sahələri → *məktub yazmaq, esse strukturu, müraciət formaları və s.*

Metodik əhəmiyyəti → *şagirdlər yazının forma və məzmununu daha dərindən mənimsəyir, real kontekstlərdə istifadəni öyrənirlər.*

Nümunə fəaliyyət → *müəllim əvvəlcə rəsmi məktubun modelini təqdim edir, şagirdlər həmin məktubu təhlil edir, daha sonra analoji məktub yazırlar.*

2. Proses əsaslı yazı. Bu yanaşmada yazı fəaliyyətinə mərhələli və dinamik yanaşma tətbiq olunur. Hər mərhələdə (hazırlıq, yazı, redaktə, korrektə və təqdimetmə) müəllim geribildirim verir və şagirdin yazısı üzərində sistemli şəkildə işləməsi təmin olunur.

Tətbiq sahələri → *mövzuya əsaslanan esse, bloq yazıları, referatlar.*

Metodik əhəmiyyəti → *yazının keyfiyyəti mərhələlərlə artır, şagirdin öz fikrini ifadə etmə bacarığı tədricən formalaşır.*

Nümunə fəaliyyət → *şagirdlər müəyyən bir mövzu üzrə əvvəlcə ideyalarını toplayır, sonra ilkin versiya yazır, müəllim və həmyaşıdların rəyini nəzərə alaraq yazını təkmilləşdirirlər* (6).

3. Cütlərlə və ya qrup işi. Bu strategiya şagirdlərin birgə əməkdaşlıq edərək yazı yazmasını nəzərdə tutur. Bu zaman şagirdlər arasında fikir mübadiləsi, üslub müzakirəsi və qarşılıqlı düzəliş prosesi baş verir.

Tətbiq sahələri → *dialoq yazısı, reportaj, situasiya əsaslı tapşırıqlar.*

Metodik əhəmiyyəti → *kommunikativ bacarıqlar, tənqidi düşünmə və əməkdaşlıq vərdişləri inkişaf edir.*

Nümunə fəaliyyət → *qrup halında verilmiş situasiya əsasında məktub və ya təqdimat mətni hazırlamaq.*

4. Qrafik cədvəllərdən istifadə (*Graphic Organizers*). Qrafik cədvəllər – beyin xəritələri, Venn diaqramları və digər vizual alətlər vasitəsilə şagirdlərin yazı öncəsi mərhələdə ideyaları planlaşdırmasına kömək edir.

Tətbiq sahələri → *məzmun planlaşdırması, müqayisə və təhlil vasitəsilə esse yazısı.*

Metodik əhəmiyyəti → *yazının strukturu əvvəlcədən aydın olur, fikirlər arasında əlaqələr qurmaq asanlaşır.*

Nümunə fəaliyyət → *"problem-həll" sxemi qurularaq bu sxem əsasında esse yazmaq.*

5. Yaradıcılıq əsaslı tapşırıqlar. Bu strategiya şagirdlərin fantaziya və yaradıcı potensialını inkişaf etdirmək məqsədi daşıyır. Məsələn, hekayə yazmaq, situasiyaya uyğun esse tərtib etmək, təxəyyülə əsaslanan məktublar yazmaq və s.

Tətbiq sahələri → *bədii yazı, şəxsi*

*gündəlik, xəyali situasiyalar.*

Metodik əhəmiyyəti → *dil resurslarından sərbəst istifadə, fərdi üslubun formalaşması, yazı motivasiyasının artması.*

Nümunə fəaliyyət → *"əgər mən robot olsaydım..." mövzusunda hekayə və ya "Gələcək məktəb haqqında təsəvvürlərim" adlı esse yazmaq* (7).

Yazı bacarığının tədrisində müxtəlif pedaqoji strategiyaların tətbiqi təlim prosesini şagird mərkəzli, interaktiv və məqsədyönlü edir. Hər bir strategiyanın özünəməxsus üstünlükləri mövcud olsa da, onların kombinə olunmuş şəkildə istifadəsi daha effektiv nəticələrin əldə edilməsinə imkan verir. Müəllimlərin yazı prosesində şagirdlərə fərdi yanaşması və mütəmadi olaraq geribildirim verməsi yazı bacarığının səmərəli inkişafına mühüm zəmin yaradır. Xarici dil müəllimləri üçün yazı bacarığının tədrisi yalnız dilin texniki aspektlərinin öyrədilməsi ilə məhdudlaşmır. Müasir pedaqoji yanaşmalar və metodik strategiyalar vasitəsilə yazı bacarığı kommunikativ və yaradıcı fəaliyyət kimi formalaşdırılır. Mərhələli, model əsaslı, interaktiv və öyrənənyönlü təlim texnikaları şagirdlərin funksional yazı vərdişlərinin inkişaf etdirilməsinə xidmət edir. Bu kontekstdə müəllimin rolu yalnız bilik ötürməkdən ibarət olmayıb, eyni zamanda istiqamət vermək, motivasiya yaratmaq və fərdi xüsusiyyətləri nəzərə almaqdır. Nəticədə, yazı bacarığının uğurlu tədrisi həm dil kompetensiyasının, həm də ümumi kommunikasiya bacarıqlarının gücləndirilməsinə şərait yaradır.

**Problemin aktuallığı.** Tədris prosesində yazı bacarığının inkişafı dil öyrənənlərin kommunikativ kompetensiyalarının formalaşması və düşüncə bacarıqlarının genişlənməsi baxımından vacib istiqamətdir. Xüsusilə də, xarici dil müəllimlərinin öz pedaqoji fəaliyyətlərində müasir və effektiv yazı təlim strategiyalarından istifadə etmələri bu bacarığın keyfiyyətli şəkildə formalaşmasına xidmət edir. Bu səbəbdən mövzu öz aktuallığını qoruyur və müasir təhsil kontekstində geniş araşdırılmasına ehtiyac duyulur.

**Problemin yeniliyi.** Mövcud tədris təcrübəsində yazı bacarığının inkişafına yönəlmiş metod və strategiyalar kifayət qədər müxtəlif olsa da, onların xarici dil müəllimlərinin hazırlığında necə tətbiq olunması və konkret nəticələrə gətirib çıxarması məsələsi yetərincə tədqiq olunmamışdır. Mövzunun yeniliyi ondan ibarətdir ki, bu məqalə çərçivəsində yazı bacarığının inkişafına yönəlik səmərəli tədris strategiyaları təhlil olunaraq, onların xarici dil müəllimlərinin peşəkar hazırlığında tətbiqi yolları müəyyənləşdirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, nəticələr xarici dil müəllimlərinin yazı bacarığını formalaşdırmaq və təkmilləşdirmək üçün istifadə edə biləcəkləri konkret strategiyaların işlənib hazırlanmasına imkan yaradır. Həmçinin bu strategiyalar pedaqoji təlimlərdə, müəllim hazırlığı kurslarında və dil fənninin tədrisində geniş tətbiq oluna bilər.

**Ədəbiyyat:**


1. Brown, H. D. Teaching by Principles: An Interactive Approach to Language Pedagogy // Pearson Education, - 2001, - p. 71-78
2. Li, M. Teaching, Learning, and Growing: The Construction of a Novice L2 Writing Teacher's Personal Practical Knowledge // Asian-Pacific Journal of Second and Foreign Language Education, № 10 (5), - 2025, - p. 1–15.
3. Aliyu, M. M. Empowering Students' Writing Skill through Performance Assessment // Journal of English Language Teaching and Linguistics, № 5 (2), - 2020, - p. 123–135.
4. Harmer, J. How to Teach Writing. Pearson Longman // Edinburgh gate, - 2004, - p.162
5. Msuya, D., & Abdala, J. Exploring Teaching Practices for Developing Paragraph Writing Skills in English as a Foreign Language through a Competence-Based Approach in Tanzania's Secondary Schools // Discover Education, № 4(84), - 2025, - p. 1-20.
6. https://www.researchgate.net/publication/371594598_Teaching_L2_Composition_Purpose_Process_and_Practice
7. https://www.routledge.com/Teaching-L2-Composition-Purpose-Process-and-Practice/FerrisHedgcock/p/book/9780367436780?srsltid=AfmBOorkgIQOxWFQvLisVpYuZE5bjkIoYLhgpaFC3S4bp7nAM4rC2sHR


**Redaksiyaya daxil olub:** 31.06.2025.